**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 376/2** **02 may 2025-ci il**

# İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə müraciət məktubunun layihəsinin hazırlanması və göndərilməsi barədə

Auditorlar Palatası sədrinin "Tender və kotirovkalarda auditor xidmətinin satınalınmasına dair "dəyirmi masa"nın nəticələri barədə" 2025-ci il 19 mart tarixli 10-1/3-3-13/2025 nömrəli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 2-ci "İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə müraciət məktubunun layihəsinin hazırlanması və Palatanın rəhbərliyinə təqdim edilməsi" və 4-cü "İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə hazırlanıb təsdiq olunmuş müraciətin aidiyyatı ünvanlara göndərilməsi" bəndlərinin icrasını təmin etmək məqsədilə Palatanın icraçı direktoru S.Gülməmmədov, Aparatın rəhbəri Q.Bayramov, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov, Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi E.İbrahomov tərəfindən hazırlanmış müraciət məktubunun layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**Qərara alır:**

1. İctimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə göndəriləcək müraciət məktubunun layihəsi bəyənilsin (əlavə olunur)
2. Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi V.Cavadova tapşırılsın ki, bir həftə müddətində ictimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə həmin Müraciətin göndərilməsi təmin edilsin.
3. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**